HAQQIN SÖZÜ – SÖZÜN HAQQI 15 DEKABR 2019-CU İL/ №023 (103)

# Yeni YOL

yeni_yol@mail.ru / İCTİMAİ QƏZET / იენი იოლი საზოგადოებრივი გაზეთი / qəzet 17 iyun 2015-ci il tarixindən nəşr olunur

2



NÖVBƏ MƏDƏNİYYƏT(SİZLİY)İ VƏ YA HƏSƏN AĞANIN QOHUMLARI

3



SADƏCƏ ADI MÖVCUD OLAN – DÜNYA İNSAN HAQLARI GÜNÜ

5



NOBEL QALMAQALI

7




ETNİK AZLIQLARIN HÜQUQİ VƏZİYYƏTİ (ARAŞDIRMA)

## GİORGİ QAXARİA: "ÖLKƏLƏRİMİZ QARŞISINDA DURAN ƏSAS PROBLEM ƏRAZİ BÜTÖVLÜYÜDÜR"



"Biz GUAM ölkələri arasında azad ticarət rejiminin reallaşdırılması üçün mümkün olan hər şeyi edəcəyik". Bunu baş nazir Giorgi Qaxaria Kiyevdə keçirilən GUAM ölkələri hökumət başçılarının sammitində deyib.

Onun sözlərinə görə, GUAM çərçivəsində iqtisadi inkişafı gücləndirmək üçün loqistika və nəqliyyat dəhlizlərinin də inkişaf etdirilməsi vacibdir.

G.Qaxaria GUAM-a üzv ölkələrin qarşısında dayanan əsas problemlərə də toxunub.

"Ölkələrimiz qarşısında duran əsas problem ərazi bütövlüyüdür. Həmkarlarıma Gürcüstanın ərazi bütövlüyünə göstərdikləri dəstəyə görə minnətdarlığımı bildirirəm. Gürcüstan tərəfi bütün mövcud münaqişələrin sülh yolu ilə həllinin tərəfdarı olaraq qalır", - deyə baş nazir bildirib.

G.Qaxaria Ukraynanın GUAM-a sədrliyi dövrünün məhsuldar olduğunu və gələn il Azərbaycanın GUAM-a sədrliyinin də məhsuldar olacağına əmin olduğunu bildirib.

## TÜRKİYƏ PARLAMENTİ ABŞ SENATININ "ERMƏNİ SOYQIRIMI" QƏRARINA ETİRAZ EDİB

Türkiyə Böyük Millət Məclisi ABŞ Senatının 1915-ci il hadisələrini "erməni soyqırımı" kimi tanınması ilə bağlı qəbul etdiyi qanun layihəsinə etiraz edib.

Türkiyə parlamentinin dörd partiyası birgə qərar qəbul edərək Senatın qanun layihəsinin əsassız olduğunu bildirib.

Türkiyə Böyük Millət Məclisinin (TBMM) sədri Mustafa Şentopun imzası ilə yayılan qərarda ABŞ Senatına etiraz bildirilib. Qərara AKP ilə yanaşı, Cümhuriyyət Xalq Partiyası (CHP), İyi Partiya və Milliyyətçi Hərəkat Partiyası (MHP) imza atıblar.

Qərarda ABŞ Senatının tarixi həqiqətləri azdırmaq istəyi ilə beynəlxalq hüququn əsas qaydalarını saymaması pislənilib. Qeyd edilir ki, Türkiyə Böyük Millət Məclisi qondarma "erməni soyqırımı" ilə bağlı qərarı təəssüflə qınayır və rədd edir.

## TÜRKİYƏ SƏFİRİ: "TÜRKİYƏ VƏ AZƏRBAYCAN ARASINDAKI DOSTLUQ SONSUZDUR"

"Türkiyə və Azərbaycan arasındakı dostluq sonsuzdur". Bunu Türkiyənin Gürcüstandakı səfiri xanım Fatma Ceren Yazqan Tbilisidə Azərbaycanın ümummilli lideri Heydər Əliyevin xatirəsinə həsr olunmuş anım mərasimində çıxışı zamanı deyib.

Səfir Heydər Əliyevin mirasının Azərbaycanda yaşadılmasının və onun ölkənin tərəqqisinə yönəldilən siyasətinin davam etdirilməsinin sevindirici hal olduğunu bildirib.

"Türkiyə və Azərbaycan dövləti və xalqları güclüdür və birlikdədir. Bu, gələcəkdə də belə olacaq. Bütün dost və düşmənlər də bunu bilməlidirlər", - deyə Fatma Ceren Yazqan vurğulayıb.

Qeyd edək ki, dekabrın 12-si Tbilisidə, Milli Parlament Kitabxanasında Azərbaycan səfirliyinin təşkilatçılığı ilə Heydər Əliyevin xatirəsinə həsr olunmuş anım



mərasimi keçirilib.

Mərasimdə Belarusun Gürcüstandakı səfiri Mixail Myatlikov, İranın Gürcüstandakı səfiri Seyid Cavad Şahidi, Qətər səfiri Mübarək bin Nair əl Xəlifə, Gürcüstan parlamentinin deputatları, Gürcüstanın xarici işlər və digər nazirliklərinin nümayəndələri, Kvemo Kartli qubernatorunun müavini, din xadimləri, digər rəsmi şəxslər və ziyalılar iştirak ediblər.

## BAŞ PROKUROR VƏZİFƏSİNİ TƏRK EDİB



Gürcüstanın baş prokuroru Şalva Tadumadze vəzifəsini tərk edib. Buna səbəb parlamentin dekabrın 12-i keçirilən iclasında baş prokuror Ş.Tadumadzenin Ali Məhkəmənin hakimi kimi təsdiqlənməsi olub.

Ş.Tadumadzenin hakim vəzifəsinə namizədliyini 89 deputat dəstəkləyib, yalnız bir deputat onun əleyhinə səs verib.

Qeyd edək ki, Ş.Tadumadze 2018-ci ilin iyul ayından Gürcüstanın baş prokuroru vəzifəsində çalışıb.



NÖVBƏ MƏDƏNİYYƏT(SİZLİY)İ
VƏ YA
HƏSƏN AĞANIN QOHUMLARI

Azər MUSAOĞLU
azermusaoghlu@gmail.com

Danışanda ağzımıza çullu dovşan sığmır, ay Avropada belədi, ay Amerikada elədi, ay nə bilim Sovet vaxtı ayrı cür idi... Amma növbə elə növbədə durmağa gələndə ara qarışır, məzhəb itir, olur həsənsoxdu dəyirmanı.

Növbə mədəniyyətinin paytaxtdan bölgələrə qədər, dövlət müəssisələrindən tutmuş xəstəxanalara, apteklərə, mağazalara qədər pozulduğunun hamımız canlı şahidiyik, bəlkə elə özümüz də bir neçə dəfə mədəniyyətsizlik edərək növbəni pozmuşuq. Axı biz hələ növbədə durmağı bacarmırıqsa Avropadan, Amerikadan bəh-bəhlə danışmağın nə mənası? Yaxşı bilirik ki, halva-halva deməklə ağız şirin olmaz.

Bu çeynənmiş primitiv mövzudan yazmağımı irad tuta bilərsiz. İnanın ki, dərdimizin növbədə durmq olmadığını, bundan daha ağır problemlərimizin olduğunu yaxşı bilirəm, bilirəm ki, bu cur bəsit şeylərdən deyil, ali zadlardan da yazmaq olar. AMMA axı biz hələ növbədə beş dəqiqə dözə bilmirik. Axı bizim hələ növbə mədəniyyətimiz formalaşmayıb.

Buna görə Ədliyyə Evlərinə, İctimai Mərkəzlərə, banklara, bəzi klinikalara sıra nömrəsi verən xüsusi aparatlar qoyuldu. Ki, insanlarda növbədə durmaq mədəniyyəti formalaşsın. Bəlkə də elə avropalaşmaq növbədə durmağı bacarmaqla başlayır.

Təəssüf ki, "yevropeyski" bu aparatlar bütün idarə və müəssisələrdə yoxdur, xüsusilə də bölgələrdə. Və Avropa aparatlarının bizi növbədə durmağa tam əhilləşdirməsinə hələ çox var. Hələ də yaşından, statusundan, milli mənsubiyyətindən, qohumbazlığından, qanmazlığından, həyasızlığından istifadə edərək növbəni pozanlar var. Ən pisi də müştərinin yox, xidmət göstərən məmurun, həkimin, işçinin, satıcının növbəni pozmasıdır. Məsələn, azərbaycanlı olmadığına görə növbə gözləmədən işini tezbazar həll edənlərin dəfələrlə şahidi olmuşam, və ya qohum, qonşu, tanış olduğuna görə növbəsiz müraciət edənləri siz də görmüş olarsınız. Buna şərait yaradanlar isə ayrı-seçkilik edən məmurlar, həkimlər, satıcılar və Həsən ağanın qohumlarıdır.

Nə qədər ki, səbrimizi cilovlayıb növbədə gözləməyi bacarmayacağıq, Avropadan danışmağa dəyməz. Nə qədər ki, Həsən ağanın qohumları növbə gözləmədən işini asanca həll edəcək, Avropanı dilimizə almamalıyıq. Nə qədər ki, Mirzə Səfərlərimiz olmayacaq, bu ceynənmiş mövzunu yazanlar yenə olacaq.

Yazını Əbdürrəhim bəy Haqverdiyevin "Mirzə Səfər" hekayəsindən o məşhur dialoqla bitirirəm:

"Bir dəfə bir nəfər şəxs dəftərxanaya gəlib, katibdən öz kağızından dolayı məlumat istəyir, katib cavab verir ki, kağızın Mirzə Səfərdədir, üzünü ağardar, apararsan. Şəxs Mirzəyə tərəf gəlir:

– Mirzə, mənim kağızımı, mümkün isə, yaz aparım.

– Dayan, bu saat yazaram, əlimdə özgə iş var.

– Bilirsiniz, mən Həsən ağanın qohumuyam?

Mirzə qələmi əlindən buraxıb kişinin gözlərinin içinə baxdı.

– Doğrudan Həsən ağanın qohumusan?

– Doğrudan.

– Sən Allah, Həsən ağanın qohumusan?

– Vallah, doğru deyirəm.

– Sən Həzrət Abbas, Həsən ağanın qohumusan?

– Həzrət Abbas haqqı Həsən ağanın qohumuyam.

– Deyinən sən öl, Həsən ağanın adamıyam.

– Sən öl, Həsən ağanın adamıyam.

– Bəs elə isə gəl min mənim boynuma. Neynəyim Həsən ağanın qohumusan, gözlə, vaxtında kağızın hazır olar, aparar-san."

# OMBUDSMAN: MİLLİ AZLIQLARIN MƏDƏNİ İRSİNİN QORUNMASI İSTİQAMƏTİNDƏ HEÇ BİR ADDIM ATILMAYIB

Gürcüstan ombudsmanı Nino Lomcaria 10 dekabr – Beynəlxalq İnsan Hüquqları Günü ilə əlaqədar bəyanat yayıb.

Sənəddə Gürcüstanda yaşayan milli azlıqların üzləşdikləri əsas problemlər də əksini tapıb.

Ombudsman bildirib ki, ölkədə milli azlıqların hüquqlarının qorunması və vətəndaş inteqrasiyası üçün dövlət tərəfindən görüləcək zəruri tədbirlər qalmaqdadır.

N.Lomcaria vurğulayıb ki, milli azlıqların qərarvermə prosesində iştirakı, təhsil hüququnun səmərəli həyata keçirilməsi, mövcud proqramlar və xidmətlər barədə məlumat və yerli idarəet-



mənin həyata keçirilməsində iştirak etmək problem olaraq qalır.

Milli azlıqların təhsilinin yaxşılaşdırılması və dövlət dilinin tədrisinin vacibliyini qeyd edən ombudsman müəllimlərin ixtisasının artırılması və tədrisin keyfiyyəti ilə bağlı problemlərin qaldığını bildirib.

İnsan haqları üzrə müvəkkil bəyanatında milli azlıqların mədəni irsinin qorunması məsələsinə də toxunub. O qeyd edib ki, əvvəlki illərdə olduğu kimi mədəni irsin bərpası və qorunması istiqamətində dövlət heç bir əhəmiyyətli addım atmayıb.

Bəyanatda həmçinin vurğulanıb ki, dini azlıqlar uzun illərdir sovet dövründə müsadirə edilmiş tarixi-dini əmlakların qaytarılmasını tələb etsələr də, bu sahədə hələlik effektiv tədbirlər həyata keçirilməyib.

Mənbə: report.az

# 2019-CU İLDƏN FƏRQLİ OLARAQ 2020-Cİ İLDƏ HÖKUMƏT 1,1 MİLYARD LARİ ÇOX XƏRCLƏYƏCƏK

2020-ci ilin büdcə layihəsinin yekun variantına əsasən, hökumət gələn il 2019-cu ildən fərqli olaraq 1 milyard 100 milyon lari çox məbləğ sərf edəcək. Həmçinin Təhsil Nazirliyi, Ədliyyə Nazirliyi və Regional İnkişaf Fondunun maliyyələşdirilməsi də bir neçə milyon lari artırılır.

İlkin versiyadan fərqli olaraq dövlətin daxili və xarici borcu da artır. Büdcə layihəsinin korrektə edilmiş sənədində deyilir ki, ilkin versiyadan fərqli olaraq iqtisadi artım göstəricisi 5%-dən 4,5%-ə qədər azalır.

"Bu, hökumətin təqdim etdiyi yekun versiyadır. Parlamentin qeydləri də müəyyən qədər nəzərə alınıb. Demək istəyirəm ki, maliyyə artırılıb və 14 milyarddan çoxdur. Hökumət 2019-cu ildən fərqli olaraq 2020-ci ildə 1 milyard lari dəyərində əlavə pul xərcləyəcək. İqtisadi artım göstəricisi tənzimlənib. Bu o deməkdir ki, artım birinci versiya olan 5% əvəzinə 4,5% olacaq. Ancaq birinci versiyada nəzərə alınan bütün sosial istiqamətlər saxlanılıb. Əmək haqqı və pensiya artacaq. Regional Fond üçün də 50 milyon lari əlavə olunub. Ədliyyə və Təhsil Nazirliklərinə də məbləğ artırılıb. Bundan əlavə daxili və xarici borclar da artır, amma bu baxımdan rəqəmlərə nəzarət edirik. Çünki borcun miqdarı ümumi daxili məhsulla yanaşmada 42% çərçivəsindədir və bu, beynəlxalq standartlara uyğundur", - deyə İrakli Kovzanadze bildirib.

Dövlət büdcəsinin ilkin layihəsindən fərqli olaraq gəlirlər kimi xərclər də artıb. Belə ki, dövlət büdcəsinin xərclənəcək hissəsi 221.0 milyon lari çoxdur və 14 milyard 432 milyon 866 min lari təşkil edir. Gələn ilin dövlət büdcəsinin gəlirləri ilə bağlı proqnoz göstəriciləri 514,2 milyon lari artıb və 14 milyard 554 milyon 200 min lari təşkil edir. Gürcüstanın regionlarında layihələr həyata keçirən fondun maliyyəsi əvvəlki versiyadan fərqli olaraq 50 milyon lari ilə 350 milyon lariyə qədər artıb. Bir neçə nazirliyin, həmçinin Təhsil Nazirliyinin maliyyəsi də artırılıb və ilkin versi-




yadan fərqli olaraq 30,5 milyon çoxdur və 1.666.5 milyon lari təşkil edir.

Büdcənin ilkin versiyasından fərqli olaraq Məcburi Köçkünlərin İşləri, Əmək, Səhiyyə və Sosial Müdafiə Nazirliyinin maliyyəsi də 16 milyon lari artıb. Beynəlxalq Valyuta Fondu ilə məsləhətləşmələr nəticəsində iqtisadi artımın proqnoz göstəricilərinə yenidən baxış keçirilib, ümumi daxili məhsulun real artım proqnozu 2020-ci ildə ilkin versiyadan fərqli olaraq 5,0%-dən 4,5%-ə qədər azalıb. Məqsədli inflyasiya göstəricisi isə olduğu kimi – 3% qalır. Vahid büdcə kəsiri isə 2,5%-dir.

Mənbə: bpn.ge

# GÜRCÜSTAN AVROPA ŞURASINA 500 MİN AVRO VERİB



Xarici İşlər Nazirliyinin (XİN) məlumatına əsasən, Gürcüstan hökuməti Avropa Şurasına (AŞ) 500 min avro həcmində könüllü ödəniş təqdim edib. Vəsait AŞ-nin layihələrinin dəstəklənməsi üçün nəzərdə tutulub. XİN-dən bildirilib ki, bu töhfə Gürcüstanın AŞ-yə sədrliyinin prioritetlərinin dəstəklənməsinə yönəldilib.

Qeyd edək ki, bu ilin noyabrın 27-dən Gürcüstan AŞ-nin Nazirlər Komitəsinə sədrlik edir. Sədrlik 2020-ci ilin mayın 15-dək davam edəcək. Gürcüstan beynəlxalq təşkilata sədrliyi üçün insan hüquqları və ətraf mühitin mühafizəsi, qərarların qəbul olunmasında vətəndaş iştirakı, ədalət, təhsil və demokratiyanın gücləndirilməsi kimi 4 əsas prioritet müəyyən edib.

## GÜRCÜSTANIN ƏTRAF MÜHİTİN MÜHAFİZƏSİ VƏ KƏND TƏSƏRRÜFATI NAZİRİ AZƏRBAYCANIN QİDA TƏHLÜKƏSİZLİYİ AGENTLİYİNİN NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞÜB



Gürcüstanın ətraf mühitin mühafizəsi və kənd təsərrüfatı naziri Levan Davitaşvili Azərbaycanın Qida Təhlükəsizliyi Agentliyinin (AQTA) heyət üzvləri ilə görüşüb. Bu haqda Gürcüstanın Ətraf Mühitin Mühafizəsi və Kənd Təsərrüfatı Nazirliyi məlumat yayıb.

Görüşdə tərəflər ölkələr arasında qida təhlükəsizliyi istiqamətində əməkdaşlıq məsələlərini müzakirə ediblər. L.Davitaşvili xüsusi olaraq qeyd edib ki, qida, baytarlıq və fitosanitariya istiqamətində sərhəd əməkdaşlığı əvəzsizdir və ticarət əlaqələrinin möhkəmləndirilməsinin ön şərtidir.

AQTA-nın sədri Qoşqar Təhməzli görüşdə qeyd edib ki, onların yeni qurduğu agentlik üçün Gürcüstanın Milli Qida Təhlükəsizliyi Agentliyinin təcrübəsi vacibdir.

Görüşdə həmçinin Gürcüstanın Milli Qida Agentliyinin rəhbəri Zurab Çekuraşvili və müvafiq xidmət nümayəndələri iştirak ediblər.

Səfər çərçivəsində AQTA nümayəndə heyəti ölkənin Milli Qida Təhlükəsizliyi Agentliyinin xüsusi avadanlıq və texnikası ilə tanış olub, həmçinin heyvanların sağlamlığı və bitki mühafizəsinə dövlət nəzarəti sistemi barədə ətraflı məlumat alıblar. Müəssisələr arasında gələcək əməkdaşlığın möhkəmləndirilməsi məqsədi ilə tərəflər arasında memorandumun bağlanması planlaşdırılıb.

Səfər çərçivəsində AQTA nümayəndə heyəti Ətraf Mühitin Mühafizəsi və Kənd Təsərrüfatı Nazirliyinin nəzdində fəaliyyət göstərən laboratoriyanı və gömrük buraxılış məntəqəsini də nəzərdən keçiriblər.

## QARDABANİDƏ YENİ FUTBOL MEYDANÇASI İSTİFADƏYƏ VERİLİB



Qardabani rayonunun Birlik kəndinin ictimai məktəbinin ərazisində yeni futbol meydançası istifadəyə verilib.

40 metrlik süni örtüklü meydança Arveladze Fondu, Türkiyənin Gürcüstandakı səfirliyi və Türk Əməkdaşlıq və Koordinasiya Agentliyinin (TİKA) birgə əməkdaşlığı ilə tikilib.

Məktəbin bazasında 25 nəfərdən ibarət futbol komandası da yaradılıb. Komandaya Arveladze Fondunun təyin edəcəyi məşqçi rəhbərlik edəcək.

Yeni komanda üzvlərinə futbol geyimləri və ləvazimatları da təqdim olunub.

Tədbirdə Türkiyənin Gürcüstandakı səfiri Fatma Ceren Yazqan, Qardabani bələdiyyəsinin icra başçısı Ramaz Budaqaşvili, rayonun sakrebulo sədrinin müavini Rəfi Orucov və digər rəsmi şəxslər iştirak ediblər.

## MİXEİL ÇXENKELİ AZƏRBAYCANIN GÜRCÜSTANDAKI SƏFİRİNİ VƏ "SOCAR GEORGIA PETROLEUM"UN RƏHBƏRİNİ QƏBUL EDİB



Gürcüstanın təhsil, elm, mədəniyyət və idman naziri Mixeil Çxenkeli Azərbaycanın Gürcüstandakı səfiri Dursun Həsənov və "Socar Georgia Petroleum"un baş direktoru Mahir Məmmədovla tanışlıq görüşü keçirib. Bu haqda Gürcüstanın Təhsil, Elm, Mədəniyyət və İdman Nazirliyi məlumat yayıb.

Görüş zamanı tərəflər arasında təhsil, elm, mədəniyyət və idman sahələrində mövcud və gələcək əməkdaşlıq planları haqqında söhbət aparılıb. Həmçinin Heydər Əliyev adına Tbilisi Dövlət Peşəkar Azərbaycan Dram Teatrının və Tbilisidə yerləşən Mirzə Fətəli Axundov adına Azərbaycan Mədəniyyəti Muzeyinin məsələləri də müzakirə olunub.

Səfir D.Həsənov Mixeil Çxenkeliyə nazir vəzifəsinə təyin olunması münasibətilə Azərbaycanın təhsil nazirinin təbrik məktubunu çatdırıb.

## GÜRCÜSTAN TANAP LAYİHƏSİNDƏN TRANZİT PAYI OLARAQ İLLİK 1,1 MİLYARD KUBMETR TƏBİİ QAZ ALACAQ

2023-cü ildən etibarən Gürcüstan TANAP layihəsindən tranzit payı olaraq illik 1,1 milyard kubmetr təbii qaz alacaq. Bu barədə Gürcüstanın baş nazirinin mətbuat xidməti məlumat yayıb.

Bildirilib ki, hazırda Gürcüstan Türkiyəyə nəql edilən Azərbaycan qazından 5% paya sahibdir və bu, illik 300 milyon kubmetrə bərabərdir. Məlumata görə, hazırda Gürcüstan ərazisindən Türkiyəyə illik 6 milyard kubmetr təbii qaz nəql edilir. TANAP layihəsinin ötürmə gücünün gələcəkdə illik 23 milyard kubmetrə çatdırılmasından sonra Gürcüstanın payı illik 1,1 milyard kubmetrdən çox olacaq.

Qeyd edək ki, ümumi dəyəri 10 milyard ABŞ dolları olan TANAP layihəsinin maksimum ötürmə qabiliyyəti illik 31 milyard kubmetrdir.

Mənbə: apa.az

## SADƏCƏ ADI MÖVCUD OLAN – DÜNYA İNSAN HAQLARI GÜNÜ



Hacı BƏKİROĞLU
hacibakir@mail.ru

Təqvimlərdə dekabrın 10-u Dünya İnsan Haqları Günü olaraq qeyd olunmaqdadır. Bu mövzu son günlərdə internetdə də ən çox axtarılan mövzular arasında yerini aldı.

Yaxşı, bəs Dünya İnsan Haqları Günü nədir və bu gün hardan ortaya çıxıb? II Dünya Müharibəsi zamanı yaşanan ağır şərtlərin ardından ortaya çıxan İnsan Haqları Beynəlxalq Bəyannaməsini bir çox ölkənin qəbul etməsiylə dünyada bu bəyannamənin qəbul edildiyi 10 dekabr tarixində Dünya İnsan Haqları Günü olaraq qeyd olunmağa başlayıb.

Birləşmiş Millətlər Təşkilatının rəsmi saytında 2018-ci ildə yayımlanmış bir yazını sizlərə təqdim edək sonra fikrimizi qaldığımız yerdən davam edərik:

"İnsan Haqları Günü hər il, İnsan Haqları Beynəlxalq Bəyannaməsinin BMT tərəfindən 1948-ci ildə qəbul edildiyi gün olan 10 dekabr tarixində qeyd olunmaqdadır. Bu il İnsan Haqları Günündə irq, rəng, din, cinsiyyət, dil, siyasi və ya digər görüşlər, milli və ya ictimai mənşə, mülkiyyət, doğum və ya digər statuslar səbəbiylə ayrı-seçkilik güdmədən hər kəsin təbii insan haqlarına sahib olduğunu elan edən İnsan Haqları Beynəlxalq Bəyannaməsinin 70-ci ildönümünü qeyd etmək üçün bir illik bir kampaniya başlayacaq. Bəyannamə 500-dən çox dilə çevrilərək dünyanın ən çox tərcümə olunan sənədi ünvanına sahib olmuşdur.

Dünyanın dəyişik bölgələrindən müxtəlif hüquqi və mədəni keçmişə sahib nümayəndələr tərəfindən hazırlanan Bəyannamə, beynəlxalq dəyərlər ilə bütün xalqlar və bütün uluslar üçün ortaq bir müvəffəqiyyət standartı təyin etməkdədir. Hər insanın insanlıq qüruruna bərabər dəyər verər..."

Birinci maddəsi "Bütün insanlar hürr, heysiyyət və haqq baxımından bərabərhüquqlu doğularlar. Ağıl və vicdana sahibdirlər və bir-birlərinə qarşı qardaşlıq zehniyyəti ilə hərəkət etməlidirlər" deyərək başlayan və 30 maddədən ibarət olan, hər bir maddəsində də insan haqlarından və hüquqlarından bəhs edən İnsan Haqları Beynəlxalq Bəyannaməsini yazan BMT bu gün dünyada baş verənlərə qarşı niyə gözlərini yumub görəsən?

Bu haqq və hüquqları kağız üzərində 500-1000 dilə çevirməyin mənası varmı bu qanunlar tətbiq olunmadıqdan sonra? Kağızların tərcüməsi ilə ən üstün olma ünvanına sahib olmaqdansa insanların haqq və hüquqlarını qorumaqla özünüzü cəmiyyətə sevdirin, hörmətli BMT.

İraqda, Fələstində, Suriyada, Afrikada, Əfqanıstanda, Arakanda, Doğu Türküstanda ölən insanlar bu haqlara sahib deyildilərmi? Qarabağda qarnına süngü batırılaraq öldürülən uşaqlar insan deyildilərmi? Niyə bu günə kimi kimsə onların haqlarını tələb etmir? Görünən odur ki, bu hüquqlar ancaq kağız üzərində tətbiq olunmaqdadır. Bir də hegemon dövlətlərin sifarişlərinə görə uyğulanmaqdadır. Bu gün İraqdan, Suriyadan, eləcə də torpaqları xarabalıqlara çevrilən ölkələrin vətəndaşları sığınmaq üçün üz tutduqları Avropa ölkələri həm bu insanların vətənlərini xarabalığa çevirir, həm də özlərinə insanlıqdan kənar müamilə ilə davranırlar. Bəs hardadır insan haqları bəyannaməsi?

Bu gün terrorçuluqda suçlanmağa çalışıldığı İslam dininin müqəddəs kitabı Qurani-Kərimdə "...Kim bir insanı öldürərsə bütün insanları öldürmüş kimi olar. Kim də bir insanı xilas edərsə bütün insanları yaşatmış kimi olar..." deyə buyurur. Ancaq insan haqlarını qoruyan təşkilatlar yaradan insanlar əslində insan haqlarını tapdalayırlar.

Odur ki, alınan qərarlar kağız üzərində qalmamalı, tətbiq olunmalıdır ki, insanlıq yaşasın, haqlar qorunsun.

# 2020-Cİ İLDƏ VAHİD MİLLİ İMTAHANLAR YENİ MODELLƏ KEÇİRİLƏCƏK




2020-ci ildə abituriyentləri imtahanlarda bir sıra yeniliklər gözləyir. Belə ki, abituriyentlər üçün vacib imtahanların sayı 4-dən 3-ə enib. Dəyişikliklər bəzi test formalarına və minimal kompetensiya həddinə də toxunacaq.

Məlum olduğu kimi, gürcü dili və ədəbiyyatı, xarici dil və riyaziyyat, yaxud tarix imtahanı vacib olacaq. Sonuncu iki fənn imtahanı istiqamətə əsasən veriləcək. Nəzərə alınmalıdır ki, əgər ali təhsil müəssisəsi tarix, yaxud riyaziyyatı vacib fənn hesab edərsə abituriyent qeyd olunan fənlərin birindən və ya hər ikisindən imtahan verməli olacaq.

Qiymətləndirmə və Milli İmtahanlar Mərkəzinin məlumatına görə, 3 fənnin imtahanlarına dəyişikliklər daxil olub:

Tarix imtahanı – açıq tapşırıqların sayı artacaq, qapalı tapşırıqların sayı isə azalacaq. İmtahan testinə iki yeni tapşırıq əlavə olunacaq: "İki müxtəlif tarixi mənbənin analizi" və "Tarixi hadisənin qiymətləndirilməsi".

"İki müxtəlif tarixi mənbənin analizi" – abituriyent iki müxtəlif (yazılı və vizual) mənbəni ümumiləşdirməlidir və hər hansı tarixi hadisənin analizi əsasında suallara cavab verməlidir.

"Tarixi hadisənin qiymətləndirilməsi" – abituriyent tənqidi düşüncə bacarığını göstərməlidir – hər hansı tarixi prosesi, hadisə, yaxud şəxsiyyəti qiymətləndirməlidir. Minimal kompetensiyanın faiz həddi dəyişməz qalır.

Abituriyent fənn üçün müəyyən edilmiş maksimum balın 20%-dən çoxunu toplayarsa imtahanı vermiş hesab olunur.

Xarici dil imtahanına edilən dəyişikliklər 2-ci və 6-cı tapşırıqlarla bağlıdır. 2-ci tapşırıqda oxunan mətnin dərk edilməsini yoxlayırdı (düzdür/səhvdir), indi isə həmin tapşırıq dinləmə ilə əvəz olunur. Abituryent bir tam mətn dinləyir və 8 suala cavab verir. Qrammatik biliyi yoxlayan 6-cı tapşırıq 10 əvəzinə 12 suallı olur. Mətnin maksimum balı (80) və imtahan üçün ayrılmış vaxt (2 saat 30 dəqiqə) dəyişmir.

Qeyd etdiyimiz kimi dəyişikliklər minimal kompetensiya həddinə də aiddir, daha dəqiq:

Abituriyent xarici dil və riyaziyyat imtahanından həmin fənn üçün müəyyən edilmiş maksimum 20%-dən çox, ümumi bacarıqlardan 30%-dən çox, digər fənlərdən maksimum 25%-dən çox bal toplayarsa müəyyən edilmiş minimal kompetensiya həddini aşmış hesab olunacaq.

Ötən illərdə olduğu kimi ali tədris müəssisələrinin konkret proqrama barier təyin etməyə, yəni minimal kompetensiya həddini qaldırmağa hüquqları çatır.

# MƏKTƏBLƏRDƏ STATUSU OLMAYAN 3224 MÜƏLLİM VAR

Müəllimlərin əksəriyyətinin statusunu artırmağa cəhd etdiyi və nəticələri yaxşılaşdırmaq üçün imtahan verdiyi halda məktəblərdə yenə də kredit toplamaqdan və sxemə qoşulmaqdan imtina edən müəllimlər qalmaqdadır. Onların sayı elə də az deyil. Gürcüstanın məktəblərində 3224 statussuz müəllim var.

"Bu adamlar sxemə qoşulmayıblar, peşə inkişafından imtina ediblər. Sxemə qoşulmaq kreditlərin toplanması, irəli getmək, əlavə maaş almaq, peşə bacarıqlarının yaxşılaşdırılması, müəllimin peşəkar inkişafı və firavanlığı deməkdir. Təbbi ki, bu, əmək haqqına da təsir göstərəcək. Bunların hamısı sxemə əsasən nəzərə alınıb", - Müəllimlər Evinin nümayəndəsi bildirib.

Onun sözlərinə görə, özəl məktəblərin müəllimlərinin sxemə qoşulmaq öhdəliyi yoxdur, ona görə də bəziləri statussuz qalıb. Ancaq ictimai məktəblərdə də statussuz müəllimlər çalışırlar.

Statusu olmayanlar siyahısında ali təhsili olmayan, amma məktəbdə çalışanlar da var. Məsələn, əgər şəxs musiqi sahəsini bitiribsə, yaxşı musiqiçidirsə, amma ali təhsili təsdiq edən diplomu yoxdursa standartları qane etmir.

Sxemə qoşulan müəllimlərin dörd kateqoriyası mövcuddur: təcrübəçi müəllim, baş müəllim, aparıcı müəllim və mentor müəllim. Gələn ildən müəllimin peşə standartına əsasən yalnız üç pillədə olan müəllimlər çalışa biləcəklər – baş, aparıcı və mentor.

Ən azı baş müəllim statusu olmayan bütün pedaqoqların yerinə yanvardan məktəblər vakansiya elan edəcək. Əgər vakansiyaya kvalifikasiyalı kadr müraciət edərsə məktəb onu seçəcək, amma vakansiya dolmazsa o zaman pedaqoqlar müvəqqəti müqavilə əsasında, məktəbə kvalifikasiyalı kadr müraciət edənə qədər çalışacaqlar.

Statusu olmayan müəllimlərin yeni ildən sonra məktəbdə qalmalarına məktəb direktoru qərar verəcək.

# AZƏRBAYCANLA GÜRCÜSTAN BİRGƏ ALİ MƏKTƏB YARADIR

"Azərbaycan-Gürcüstan birgə ali məktəbinin yaradılması ilə bağlı danışıqlar gedir. Gürcüstandakı azərbaycanlı gənclərin Azərbaycanın ali məktəblərində təhsil almaları üçün kvotaların ayrılması üçün razılıq əldə edilib. Hazırda bu istiqamətdə işlər aparılır. Gələn ildən bu kvotaların ayrılması nəzərdə tutulur". Bu fikirləri Diaspora İş üzrə Dövlət Komitəsinin sədri Fuad Muradov Yeni Azərbaycan Partiyasının (YAP) qərargahında keçirdiyi mətbuat konfransında deyib.



Onun sözlərinə görə, Təhsil Nazirliyi və digər qurumlarla birlikdə fəaliyyət planı tərtib edilib və hökumətə təqdim olunub: "Biz bilirik ki, Gürcüstanda azərbaycanlıların yaşadığı yerlərdə hansı problemlər mövcuddur və hansı işlər görülməlidir. Bildiyiniz kimi, Təhsil Nazirliyi Gürcüstana dərsliklər göndərir. Hər il də bu dərsliklərin sayı artırılır. Bu, çox vacib məsələlərdən biridir. Bu gün orada mövcud olan bəzi çatışmazlıqları müzakirə edirik. Bu, əsasən, müəllimlərin yaşlanması ilə bağlıdır. Bununla bağlı bəzi Azərbaycandilli məktəblərdə müəllim çatışmazlığı var. Dövlət Komitəsinin sifarişi ilə xaricdə yaşayan azərbaycanlılar üçün Azərbaycan dili dərsliyi hazırlanıb və Təhsil Nazirliyinə təqdim olunub".

*Mənbə: report.az*

# MÜƏLLİMLƏR ÜÇÜN YENİ TİP İMTAHANLAR NƏ ZAMAN KEÇİRİLƏCƏK?



Müəllimlər üçün baş müəllim statusunu bir pillə ilə qazanacaqları yeni tipli imtahanlar 2020-ci ilin yayında keçirilməyəcək. Bu haqda "etaloni.ge"yə Qiymətləndirmə və Milli İmtahanlar Mərkəzindən bildirilib.

"2020-ci ilin yayında yeni tipli imtahanlar keçirilməyəcək. Vaxt çatmayacaq. Müəllimlər Evi dəqiq hansı növ imtahan lazım olduğunu bildirəcək və sonda biz buna əsasən çalışmalara başlayacağıq. Bilirik ki, Müəllimlər Evi yenilik planlaşdırır və dəqiq təlimat verdikləri zaman işə başlayacağıq.

Doğrudur, 2020-ci ilin yayına çatmasa da, 2021-ci ildə yeni tipli imtahanlara artıq hazır olacağıq. Ola bilsin aparıcı və mentor statusu qazanmaq üçün imtahanlar ayrı-ayrı olsun. Müəllimlər Evi nə deyərsə onu edəcəyik", - Qiymətləndirmə və Milli İmtahanlar Mərkəzinin rəhbəri Sofio Qorqodze bildirib.

Yeni tipli imtahanların keçirilməsi ilə bağlı məlumat bir neçə ay əvvəl yayımlanıb. Bu məsələ ilə bağlı "etaloni.ge" Müəllimlərin Peşəkar İnkişafı Mərkəzinin rəhbəri Berika Şukakidze ilə söhbət aparıb. Onun bildirdiyinə görə, Müəllimlər Evi Qiymətləndirmə və Milli İmtahanlar Mərkəzi ilə birgə davamlı şəkildə çalışır və yekun təfərrüatlar dəqiqləşdirilir.

Yeni tipli imtahanlarla baş müəllimlərə imkan veriləcək ki, özləri seçərək aparıcı müəllim imtahanı versinlər və statuslarını bir pillə qaldırsınlar, yaxud birbaşa mentor imtahanını versinlər və ali müəllim statusu qazansınlar.

Qeyd olunan imtahanlarla bağlı format hazırlanana qədər 2020-ci ildə müəllimlər indiyə kimi olduğu qaydada imtahan verəcəklər.

Səhifəni hazırladı: Aynurə ƏLİYEVA

# 43 MİNƏ YAXIN MÜƏLLİMİN ƏMƏK HAQQI ARTIRILIR

2020-ci ilin təsdiqlənmiş büdcəsinə əsasən, baş müəllim, aparıcı müəllim və mentor müəllim statusu olan 43 minə yaxın pedaqoqun əmək haqqı 150 lari artır. 2020-ci ilin büdcəsində müəllimlərin əmək haqqının artması üçün 140 milyon laridən çox vəsait ayrılıb.

"İctimai məktəblərin baş, aparıcı və mentor müəllimlərinin əmək haqqı 2019-cu ilin 1 oktyabrından 150 lari artır və 2020-ci ildə yeni tədris ilinin başlanğıcında 150 lari artacaq. Qeyd olunan statusu olan müəllimlərin əmək haqqının artması ilə bağlı 2020-ci ildə, ümumilikdə, 140 milyon laridən çox vəsait xərclənəcək", - 2020-ci ilin büdcəsinin izahat qeydində bildirilir.

Qeyd edək ki, müəllimlər əmək haqlarına əlavə edilmiş 150 larini oktyabrdan alırlar. Ümumi hesabda onların əmək haqqı 300 lari artmış olur. Bununla bağlı keçmiş təhsil,



elm, mədəniyyət və idman naziri Mixeil Batiaşvili hələ sentyabrda büdcə layihəsinin müzakirəsi zamanı söhbət açmışdı.

# NOBEL QALMAQALI



Avropada müsəlmanlara – xüsusilə də türklərə qarşı artan kin və nifrət hissləri hər gün keçdikcə yeni vüsət almaqdadır. Bu tip neqativ hallara rastgəlmə intensivliyi artdıqca mövzuya cavab müraciətini də bərabərində gətirir. Artıq Günbatan ölkələrində sivil toplum ideologiyası siyasi platformaya meyillənmiş, mülki cəmiyyət siyasətə assimiliyasiya olunmuşdur. Son onillikldə elm, mədəniyyət, idman və digər fəaliyyət sahələrinin "çirkli oyun"lara yenik düşməsini rahatlıqla söyləyə bilərik.

Cari ildə dünyanın ən dəbdəbəli mükafatlarından olan Nobel mükafatlarının təqdimatı da bu qəbildəndir və həd isə qalmaqalla yadda qaldı. Təqdimetmə mərasimini Türkiyə, Kosovo və Albaniya elm və ictimaiyyət xadimləri ilə yanaşı siyasi rəhbərləri də boykot edərək tədbirdə iştirak etmədi. Hətta Nobel Mükafatları Komitəsinin iki üzvü etiraz əlaməti olaraq qurumdan istefa verdilər. Buna səbəb adıgedən mükafatın laureatları arasında avstriyalı yazıçı-dramaturq Peter Handkenin də olması idi. Mükafat Komitəsi Peter Handkeni ədəbiyyat nominasiyasında Nobel mükafatına layiq gördü.

Söhbət Peter Handkenin ədəbiyyat bölməsində "böyük" və ya "kiçik" adam olduğundan getmir. Hər bir şəxs yaradıcılığın bu və ya digər sahələrində nailiyyətlər əldə edə bilər. Lakin məsələ bu adamın humanistlik hissləri və insani dəyərlərə nə dərəcədə malik olmasından gedir. Belə ki, Peter Handke ötən əsrin 90-cı illərində keçmiş Yuqoslaviya ərazisində hərbi cinayətlər törətmiş, o cümlədən Sarayevo və Serebnitsada minlərcə Bosniya müsəlmanlarına qarşı etnik təmizləmə zəmnində soyqırımı aktı həyata keçirmiş Slabodan Miloşeviçə haqq qazandırmışdır. O, cani dövlət rəhbəri haqqında düşüncələrini müəllifi olduğu "Dunay, Sava, Morava və Drina çaylarına qış səyahəti və yaxud Serbiya üçün ədalət" kitabında qələmə almışdır. Yazıçı-dramaturqun fikrincə, müsəlmanlara qarşı soyqrımını məhz müsəlmanların özləri etmişlər. Çürük məntiqə malik bu şəxs öz müsahibələrinin birində Miloşeviçin Hitlerlə müqayisə edilməməsini tələb etmişdir.

Bu arada, Türkiyə prezidenti Ərdoğan mükafat qalmaqalı ilə bağlı sərt bəyanat yaymışdır. Onun sözlərinə görə, bundan sonra Nobel mükafatı artıq öz dəyərini itirmişdir. Ərdoğan: "Bosniyadakı soyqırımını inkar edən və müharibə cinayətkarlığını müdafiə edən bir irqçiyə məhz 10 dekabr – İnsan Hüquqlarının Müdafiəsi günündə Nobel ədəbiyyat mükafatının verilməsi, insan hüquqları pozuntularının mükafatlandırılmasından başqa heç bir məna daşımır."

Mövzunu idman sahəsində də davam etdirmək olar. Türkiyə prezidenti ilə birgə fotoşəkil çəkdirdiklərinə görə dünyaca məşhur türk futbolçular – Mesut Özil və İlkay Gündoğan öz "nəsib"lərini almışlar. Şəkil qalmaqalına görə Almaniya Futbol Federasiyasının prezidenti tərəfindən sərt tənqid olunan Özil ədalətsiz mühakiməyə cavab olaraq Almaniya yığmasında kariyerasına son qoydu. Deməк ki, Almaniyanın dünya çempionu olması üçün tər tökdükdə Özil "almaniyalı", ancaq vətəninin dövlət başçısı ilə şəkil çəkdirdikdə türk olur. Eyni aqibəti digər türk ulduz futbolçu da yaşadı. Gündoğan isə "günbatan" azarkeşlər tərəfindən stadionda fitə basılaraq ona mənəvi sarsıntı yaşatmışlar.

Türkiyə futbolçuları qol sevinclərini azarkeşlərlə bölüşərkən "əsgər salamı" vermələri Fransa futbolunun rəhbərini o qədər qıcıqlandırmışdır ki, hətta o, türkləri UEFA-ya şikayət etmişdi. Lakin bənzəri "salam"ın Fransa yığmasının üzvü Kriezman tərəfindən edilməsini görməzdən gəlmək onun qeyri-dürüst insan olmasına dəlalət edir.

İnsan reallığı və həqiqəti görməzdən gələ bilər, obrazlı mənada ona "eynək" məsləhət görə bilərlər. Ancaq nə badə ki, eynək belə insanların mənəviyyatı üçün məsləhət görülmüş olsun.

Sahib MUSTAFAOĞLU

# SAĞLAM CƏMİYYƏT

Erix Fromm "Sağlam cəmiyyət" adlı kitabında cəmiyyətin mədəniləşməsi və sonda sağlam bir cəmiyyətə çevrilməsi üçün çox maraqlı məqamlara toxunub. O, hesab edir ki, sağlam cəmiyyət üçün mütləq iki məqam var: 1. "Müstəqil insan"; 2. Tənqidi fikrə malik insan.

Qərbin özünün fərqli və mütəşəkkil bir inkişaf platforması olub. Bu inkişaf mərhələsinə gələnə kimi, təbii ki, uzun bir yoldan keçib. O sistemi oradan götürüb burda birbaşa tətbiq etmək heç də asan başa gələcək bir proses deyil – əgər biz etiraf etsək ki, hər bir cəmiyyət öz mental dəyərləri ilə icma və ya cəmiyyətlərə çevrilib. Hər regionun özünəməxsus insanları, qaydaları, tələbləri var. Bu tələblərə ancaq mədəni insan olaraq nail olmaq mümkündür. Mədəni insana kimi isə təhsilli fərd əsas önəmli mənbədir. Bəs bizim sağlam cəmiyyətimiz hardan necə başlamalıdır?

Gəlin etiraf edək ki, bizim ailələrdə uşaq tərbiyəsi üçün bir proqram yoxdur. Uşaq tərbiyəsi onu qorxu altında böyüdərək pis vərdişlərə qoşulmaması üçün tənbehlərlə davam edən uzunmüddətli prosesdir və valideynlər bu prosesin əsas aparıcı obyektini məktəb və orada çalışan müəllim komandasını hesab edir. Yəni bu işlə müəllimlər məşğul olmalı. Məktəb həm təhsil, həm də təlim-tərbiyə işlərində öz vəzifəsini yerinə yetirməlidir. Yenə ikinci sual, bəs bu gün məktəb və müəllimlər bu standarta cavab verirmi? Bu, bir az qəliz və mübahisəli məsələdir.

İlk öncə müəllimlərin yaş kateqoriyası buna imkan vermir. Sovet təhsilli müəllimlər, bununla bitməyərək sadəcə bir sistem tanıyan və o sistemə tabe olmağı öyrənmiş kütlə. Uzun müddət o sistem altında yaşamaq artıq qana kimi hopmuşdur. Bəlkə də hazırda təqaüd yaşına çatan müəllimlər gənc kadrlardan daha savadlı ola bilər, amma məsələ bundan ibarətdir ki, onların düşüncələri, həyat tərzləri müasir təhsil sistemini nə qəbul edə, nə də qavraya bilir. İlk öncə buna yaş təsir edir, yaşlandıqca təbii proses olaraq insanın zehni də zəifləməyə başlayır. Müasir təhsil sistemi nəzəriyyədən çox praktikaya önəm verir və bu da öz-özlüyündə operativlik və kreativlik tələb edir. Yeni müasir tətbiq yalnız gülüşə səbəb olur. Bu standart, təəssüf olsun ki, yoxdur.

İkinci məsələ isə təlim-tərbiyə məsələsidir. Yeni nəsil fərqli üslubda böyüyür, o internet zəmanəsində yaşayır və informasiya, proseslər ona tez gəlib çatır. Məktəb və məktəbdə olan diktator rejimi onu sıxır, onun azad fərd kimi inkişafına mənfi təsir göstərir. Valideyn öz uşağının təlim-tərbiyəsini və təhsilini tamamilə müəllimə həvalə edir və birbaşa məsuliyyət müəllimə ötürülür. Bu artıq o deməkdir ki, uşaq müəllimdən şikayət edə bilmir, mövcud məhdudlaşmaya zaman-zaman öyrəşməli, alışmalı və sonda tamamilə tabe olmağa kimi gedib çıxır. Məktəb nəticədə müstəqil və tənqidi fikrə malik insan yetişdirə bilmir.

Məktəb elm ocağından daha çox özünü xilas etmə müəssisəsinə çevrilib. Məktəb bir qazanc mənbəyinə çevrilib. Direktor orada çox qalmaq üçün diktator rejimi tətbiq edir, müəllim də daimi işləmək üçün tabe olma rejimini seçir. Müəllim əgər ora prioritet olaraq qazanc kimi baxırsa, sadəcə işinin kiçik hissəsi kimi başdansovdu təhsil verirsə, artıq bu, geniş axsaqlığa gətirib çıxarır. Bu da öz-özlüyündə sağlam varlığın yaranmasına və bu varlıqların sağlam cəmiyyətə çevrilməsinə imkan vermir. Məktəb müstəqil bir müəssisə olduğunu dərk etmir, bu, azərbaycanlı olaraq bizim irrasional cəmiyyət olmağımızdan irəli gələn bir məsələdir. İdarə etməyi deyil də, idarə edilməyə yönəlmiş bir cəmiyyətik. Bu faktor da bu prosesə mənfi təsir göstərməyə malik ən önəmli amildir. Asılı, tabe olan, idarə edilən, yeniliyə açıq olmayan bir müəssisə bizə sağlam cəmiyyət olmağımız üçün bütün yolları ilk




başdan bağlayaraq, məişət xalqları kimi yaşamağa davam etməyə məcbur qalmış koranə bir cəmiyyətin lal, kor fərdləri olaraq sadəcə yaşamalı olduğumuz üçün yaşamaq məcburiyyətində qalaraq bir ömrü məişət problemlərinə qurban verərək yaşayırıq.

Başqa qeyri-Azərbaycandilli məktəblərdən müstəqil fərd çıxa bilir, amma bizdə bu alınmır. Başqa müəssisələrdə tənqidi fikrə malik olan müəllimlər var, amma bizdə mümkünsüzdür. Təbii ki, insanın təbiətdən ayrılaraq dünyaya hegemonluq etməsinə qədər çox uzun illər keçib və uzun illərin sonunda irrasionalıqdan xilas olmuş yeni kateqoriyalı nəsil yetişməsi ümidi ilə.

**Samirə BAYRAMOVA**
*İctimai fəal, hüquq müdafiəçisi*

# DƏYƏRLƏRİMİZ NİSBƏTİNDƏ VARIQ



Mənim bu məqaləni yazmağımın bir neçə səbəbi var, ancaq ən başlıca səbəbi millətimin dil, din, mədəniyyət, milli mentalitet kimi dəyərlərinin dəyişməyə meyilli olmasını görməyim oldu. Gündəlik həyatda qarşılaşdığımız səhnələr bu kimi yazıların yazılmasının səbəbidir.

Başqaları kimi görünməyə çalışmağımız bizim gerçək kimliyimizi bizə unutdurur. Kimliyi unudulmuş bir millət başqalaşar, yəni qeyriləşər. Bu qeyriləşmə isə bir millətin müəyyən zaman sonra yox olmasına səbəb olar. Millət kəmiyyət olaraq var olar, ancaq keyfiyyət və dəyərlər baxımından yoxluğa üz tutar. Dəyərlərini unutmuş cəmiyyət bənzəməyə çalışdığı qeyrisi olmağa başlayar.

Mən də öz şəxsimdə millətini sevən biri olaraq bu kimi səhnələrə göz yuma bilmərəm və millətimin hər bir fərdini sahib olduğu dəyərlərə sahib çıxmağa dəvət edirəm. Bir millət dəyərləri ilə var ola bilər. Dəyərləri olmayan bir millət düşünülə bilməz.

Özgələrin donuna büründüyümüz halda biz yalnız özümüzü aldatmış oları və kənardan baxanlar üçün gülməli bir vəziyyətə gələrik. Bunun üçündür ki, uca Allah biz insanlara düşünməyimiz üçün beyin, zehin və ağıl vermişdir. Seçici olmağımız üçün də iradə vermişdir. Biz bizə verilən bu dəyərləri istifadə edib, sahib olduqlarımızı qorumazsaq qeyriləşməyə məhkum olarıq.

Bir millətin dəyəri onun adət-ənənəsi, ziyalısı, milli və mənəvi dəyərləridir. Əgər bir millət öz dəyərlərini qorumayıb özgələrin dəyərlərinə özənib, həvəslənirsə, onu özününkündən üstün tutur və yaşatmağa çalışırsa bu hərəkət o milləti məhvə aparır deməkdir. Bu dəyərlərimizi də qorumaq bu gün biz böyüklərin üzərinə düşən bir vəzifədir.

Bu gün hər kəs əlindəki imkan nisbətində cəmiyyəti və milləti qoruyub sahib çıxmalıdır, əks təqdirdə başımıza gələcək olan fəsadlara qarşı şikayət etməməliyik. Bizlər bilə bilə uçuruma yuvarlanırıq. Necə ola bilər ki, uçurumun kənarında dolaşan biri uçurumdan xəbərsiz olsun? Xəbərimiz var hər xəbərdən, lakin özgələrə oxşamaq sevdası elə bir bəladır ki, əksər insanı bürüyüb və bu bəlanın da çarəsi çətindir. Gəlin parçalanmadan, əzilmədən, tamamilə yox olmadan bir cəmiyyət olaraq gənclərimiz üçün gözəl bir millət, bir mədəniyyət və yaşanılacaq bir dünya miras buraxaq. Qeyriləşmiş bir millətin gələcək üçün ümid doğurması gözlənilməzdir.

Bu cəmiyyətdə var ola bilmək üçün biz bizə və gələcəyimizə sahib çıxmalıyıq ki, gələcək nəsillər də keçmişinin laylasını, qayğısını və dəyərlərini əsrlərcə yaşatsınlar. Bir sözlə, gələcək nəsillərimizin biçməyini istədiyimiz məhsulun toxumlarını bu gün bizlər əkməliyik.

Lamiyə Hacıyeva (Eminova)
*Bütün Gürcüstan Müsəlmanları İdarəsinin*
*Şərqi Gürcüstan müftiliyi üzrə Qadınlan Şöbəsinin sədri*

# BİR İNSANIN QİYMƏTİ ONUN ELMİNİN DƏYƏRİ QƏDƏRDİR

Əziz və hörmətli oxucular, istəyirəm ki, yazdığım bu məqaləni öz şeirimlə başlayam.

Elm mənim nəfəsim,
Azəri Türk səsim.
Elm mənim varlığım,
Elm ucaldır adım.
Elm mənim qüdrətim,
Elmə var hörmətim.
Elmsiz yaşamaq bil
Dünyada çox çətin.

İnsan dünyaya tərbiyə olunmadan və heç bir şey öyrənmədən gəlir. Həyatı boyu tərbiyə və təhsil onunla davam edir. Çünki bir insanın tərbiyəsi olmazsa, tərbiyə nədir bilməz. İnsanın öz-özünə gözəl əxlaqlı olması da qeyri-mümkündür. Biz kimdənsə örnək almasaq əxlaqımızı dəyişdirə bilmərik. Ata-ana tərbiyəsi və ailə mühiti insan şəxsiyyətinin formalaşmasında mühüm rol oynayır. Bu səbəbdən də tərbiyə insan həyatında çox mühümdür. İnsanın ilk tərbiyəsi – genetik tərbiyə, yəni valideyinlərdən irsi olaraq keçir. Eləcə də məktəbəqədər olan tərbiyə və yaxud məktəbdə oxuduğu zaman uşaqların bədii ədəbiyyata, söz sənətinə yiyələnməsinin özü də qüdrətli tərbiyə vasitəsidir. Eləcə də bədii ədəbiyyat həyatı bədii obrazlarla əks etdirən söz sənətidir. Bu sənət insanda gözəl əxlaqi sifətləri, incə və zərif duyğuları tərbiyə edən vasitədir. Bunun özü də çox mühümdür, çünki həmin müddətdə uşaqlara verilən tərbiyə həyatı boyu onlarla birlikdə davam edir. Uşaqlar həyatını həmin tərbiyə üzərində qurarlar. Nizami Gəncəvi yazır ki, "Körpəlikdə əyri bitən bir budaq böyüyəndə də əyri olacaq". Deməli, hər bir valideyn bilməlidir ki, kiçik yaşda olan uşaqların tərbiyəsinə xüsusi diqqət yetirilməlidir.

Tərbiyə uşağın həm psixi, həm də fiziki cəhətdən sağlamlığına təsir edən əsas vasitələrdən biridir. Körpə uşağın düzgün formada qidalanması da əsas şərtlərdən biridir. Psixoloqlar tərəfindən qəbul edildiyinə görə, ana südü körpənin psixoloji inkişafı baxımından böyük əhəmiyyətə malikdir. Ana südünün tərkibində olan yağ turşusu, karbohidratlar və taurin amin turşusu mövcuddur ki, bu da körpənin beyninin inkişafında çox mühüm rol oynayır. Və eləcə də ana südü ideal qida maddəsi olmaqla yanaşı, həm də körpələri infeksion xəstəliklərdən qoruma baxımından mühüm əhəmiyyətə malikdir. Əsas odur ki, ana südünün tərkibində olan və ondan körpəyə keçən immunoqlobinlər körpələri təxminən 6 aya yaxın mikrob xəstəliklərinə qarşı qoruma funksiyası daşıyır. Hər bir ana bilməlidir ki, körpə əmizdirməyin ana üçün də böyük faydası var. Bunlardan ən mühümü körpə əmizdirən ananın döş xərçəngindən qorunmasıdır. Qeyd etmək lazımdır ki, hər bir ananın öz körpəsini tam iki il ana südü ilə qidalandırması körpənin hərtərəfli inkişafına və sağlam böyüməsinə müsbət təsir göstərir.

Əksər alimlərin fikrincə, uşaqların tərbiyəsi 4-6 yaşına qədər artıq tamamlanır. Bu yaşa qədər alınan tərbiyə həmin uşağı bütün həyatı boyu təqib edir. Hərtərəfli biliyə malik olan tarixçi və yazıçı Abbasqulu ağa Bakıxanov yazır: "Uşaqlıqda öyrənilən elm başda qazılmış nəqşlər kimidir". Biz bu məşhur məsələni nəzərə alaraq bilməliyik ki, uşaqlara kiçik yaşlarından əxlaq gözəlliklərini öyrətmək lazımdır ki, bu gözəl xüsusiyyətlər adət və vərdişə çevrilib təbiətlərinə daxil olsun. Ailədəki tərbiyə, düşüncə tərzi uşaqların tərbiyəsinə və ruhuna birbaşa təsir göstərir. Məktəblərdə bütün fənlər kimi dini tərbiyə, milli mədəniyyətlə bağlı mövzular keçirilərsə bu daha gözəl olar. Elm şəhərinin qapısı olan imam Əli həzrətləri buyurur: "Bir insanın qiyməti onun elminin dəyəri qədərdir". Çünki insanı pis əxlaqdan, zidd əməldən çəkindirən məhz onun elmi və tərbiyəsi nəticəsində əmələ gəlir. Düşüncəli insanın həyatda rolu olduqca böyükdür. Bu da insanı tərbiyə edən və həyatda ona istiqamət verən əsas amillərdən biridir. Həyatda yalnız doğru düşüncəli biri cəmiyyət üçün faydalı ola bilər. Düşüncəsiz insanlar isə cəmiyyət üçün yalnız yük olan insanlardır.

"Sevgidə günəş kimi ol" deyən mütəfəkkir – sənətkar olan Mövlanaya sual verirlər ki, bu qədər elm öyrənməkdə məqsədin nədir? Həzrət Mövlana belə cavab verir: "Elm dərk etməkdir. Dərk etmədən elm öyrənilməz. Elm həddini bilməkdir".

Doğrudan da, müasir həyatımızı elmsiz təsəvvür etmək qeyri-mümkündür. Elm uzun həyat yolunda insanın əldə edə biləcəyi ən dəyərli varlığıdır. Eləcə də elm insana bilik, ümid, inam verən ən böyük xəzinədir. Bu xəzinə digər xəzinələrdən ona görə fərqlənir ki, pul ilə alınıb-satıla bilmir. Pul hər şey olsa da, hər şey pul deyil. Öz dərin biliyi ilə dünyaya elm qapısı açan və dünyada əbədi yaşayan gözəl tarixçi, şair və yazıçı Abbasqulu ağa Bakıxanovun elm haqqında yazdığı sözlər yerinə düşər: "Dövlət ağıldan, elmdən üstün deyildir. Çünki elm həmişə səninidir və onu heç kəs səndən ala bilməz".

s

Nüsrət Məhəmməd

# ETNİK AZLIQLARIN HÜQUQİ VƏZİYYƏTİ – İNSAN HÜQUQLARI TƏDRİSİ VƏ MONİTORİNQ MƏRKƏZİNİN (EMC) QİYMƏTLƏNDİRMƏSİ

***Dekabrın 10-u EMC (İnsan Hüquqları Tədrisi və Monitorinq Mərkəzi)2019-cu ildə insan haqlarının vəziyyəti ilə bağlı qiymətləndirmə yayımlayıb. Sənəddən etnik azlıqların hüquqi vəziyyətinə aid olan hissəni təqdim edirik:***




Etnik azlıqların hüququnun qorunması və inteqrasiyası istiqamətində 2019-cu il vacib müsbət dəyişikliklər gətirən il olmayıb. İnteqrasiya siyasətində dövlət tərəfindən planlaşdırılmış fəallıqlar etnik azlıqların qarşısında duran real siyasi və sosial problemlərə cavab vermir və azlıqların aşağı siyasi iştirakı şəraitində qeyri-dominant qrupların ehtiyacları, narahatlığı və maraqlarının uyğun şəkildə siyasi qorunması çətinləşir.

Etnik azlıqlara qarşı dövlət siyasəti hüquqların qorunması, bərabərlik və inkluziya prinsipi əvəzinə az-çox təhlükəsizlik, geo-siyasiləşdirmə və mədəni dominasiya kimi perspektivlərə əsaslanır. Dövlət siyasəti etnik azlıq qruplarına qarşı olan tarixi rədd etmə və dominasiya təcrübəsinə görə dərin və struktur bərabərsizliyini yetərli şəkildə görmür. Bu yanaşmalar şəraitində isə dövlətin xüsusi müsbət siyasəti (həmçinin siyasi iştirakın gücləndirilməsinə istiqamətlənmiş xüsusi mexanizmlər, işlə təmin olunmaya dəstək siyasəti, sosial müdafiə üzrə praktiki yanaşmalar) yoxdur. Bunlar mövcud olarsa problemin aradan qaldırılması üçün sistematik və institusional imkanlar yaradardı.

Cari ildə yüksək vəzifəli şəxslər tərəfindən etnik azlıqlara qarşı yenidən problemli və diskriminativ bəyanatlar eşidildi. Parlamentin Təhsil, elm və mədəniyyət komitəsinin sədrinin bəyanatı kimi. O, Gürcüstanın azərbaycanlı icmasını qonşu ölkə ilə əlaqələndirdi. Cari ildə parlamentdə daha bir simptomatik hal qeydə alındı. Parlamentin deputatı Ümum Gürcüstan Müsəlmanları Ali Dini İdarəsinin şeyxinin gürcü dilini bilməməsini qeyd etdi və bildirdi ki, əgər şeyx Gürcüstan vətəndaşıdırsa gürcü dilində danışmalıdır.

EMC-nin Kvemo Kartli regionunda fəal çalışması göstərir ki, gürcü dilinin dominasiyası (üstünlüyü) siyasəti yerli azərbaycanlı icmasına ağır nəticələr verir. Dövlət dilinin tədrisi siyasətinin gücləndirilməsi vacibdir, ancaq illər ərzində yerli özünüidarəetmə və dövlət ərazi orqanları Azərbaycan dilində tərcümə resurslarını təmin edə bilmirlər. Bu isə yerlilərin böyük hissəsinin siyasətdən təcrid olmasına səbəb olur. Sosial Araşdırmalar və Analiz İnstitutunun (İSSA) yaxın araşdırması göstərir ki, azlıqların regionlarında adamların demək olar ki, 70%-i problemlər üçün yerli bələdiyyəyə kollektiv və ya fərdi şəkildə müraciət etməyib. Regionda qadınların siyasətdə iştirakı daha ağır problemdir.

Kvemo Kartlinin kəndlərində həyati resursların (torpaq, içməli su və suvarma suyu) və baza sosial proqramının əlçatanlıq problemi ağır şəkildə qalmaqdadır. Aydındır ki, bu, etnik azlıqların sosial çətinliyini artırır.

Bu regionlarda məktəbəqədər təhsil infrastrukturu çatışmamazlığı problemi var. Təhsilin keyfiyyəti isə azlıqların sıx məskunlaşdığı regionların ictimai məktəblərində ciddi şəkildə aşağı və qeyri-bərabərdir. Bu da həmin qrupların uyğun inkişaf imkanını çökdürür. İndiyə qədər Təhsil Nazirliyi etnik azlıqların ümumi təhsil baxımından olan probleminə real cavab verəcək xüsusi baxış hazırlamayıb.

“1+4” proqramının dəstəyi ilə təhsil alan gənclərin işlə təmin edilməsi göstəricisi də aşağıdır və təəssüf ki, dövlətin bu qrup üçün işlə təmin etməyə dəstək olacaq xüsusi siyasəti (dövlət idarələrində təcrübə proqramından başqa) yoxdur.

Etnik azlıqların məskunlaşdığı regionlarda dövlət mədəniyyətinin dominasiyasının aşkar təcrübəsi diqqətə yetirilməlidir. Yerli mədəniyyət siyasətində bu və yerli bayramların, azlıqların mədəniyyətinin zəif təqdimatı mexanizmi aydın görünür.

“1+4” proqramının əhəmiyyətli sosial nəticələri vurğulanmalıdır ki, regionda gənc, yaxşı təhsili olan fəalların unikal resurslar yaratmasında da bu özünü göstərir. Onlar siyasətdə özünü tapır və təşkilatçılıqda maraqlı təcrübə yaradırlar.

2019-cu il Pankisi dərəsi üçün xüsusən ağır idi. Aprelin 21-i Pankisi dərəsində HES-in vacib tikintisini təmin etmək üçün DİN geniş miqyaslı polis tədbiri planlaşdırdı və HES-lərin ətrafında gedən siyasi danışıqlar hələ başa çatmamışdır. Qeyd etmək lazımdır ki, bütün il ərzində polis və DTX yerli liderlər və fəalların polis şöbəsinə aparılması və hədələnməsi texnikası ilə fəal şəkildə HES-lərin tikitnisinə qarşı etirazı zəiflətməyə çalışırdı. HES-lər mövzusunda aparılan danışıqlar prosesinə tam qanunsuz daxili işlər nazirinin müavini qoşulmuşdu. Aprel hadisələrindən sonra HES-in tikintisi məsələsi müvəqqəti olaraq dayandırıldı, ancaq HES-lərin tikintisi və onun sosial və ətraf mühitin mühafizəsinə təsirini qiymətləndirmək üçün demokratik tövsiyyələr prosesini dövlət yenə də yaratmadı.

Bütün bu dövr ərzində HES-lər mövzusu ətrafında polis və DTX-nın fəal hərəkəti və bu prosesdə daxili maraqdan dolayı qrupların yaradılması və həvəsləndirilməsi strategiyası icmada daxili qarşıdurma risklərini artırdı ki, bu da yerlilərin sözlərinə görə, cari ilin 27 noyabrında yerli qruplar arasında silahla mübahisə və ağır qurbanlarla başa çatdı.

Cari ildə Temirlan Maçalikaşvilinin ölüm işi ilə bağlı aparılan istintaq prosesinin yenə də nəticəsi olmadı. Maçalikaşvilinin ailəsinin yenə də zərərçəkmiş statusu yoxdur və işin materiallarının vacib hissəsi onlara əlçatan deyil. Cari ilin avqustunda işlə bağlı yüksək vəzifəli şəxslərin, həmçinin DTX-nın rəhbəri və müavininin dindirilməsi prosesi göstərdi ki, istintaq formal xarakter daşıyır. Qeyd olunan işlə bağlı cari ildə EMC Avropa İnsan Haqları Məhkəməsinə müraciət göndərdi və tez zamanda Gürcüstan hökuməti ilə ünsiyyət prosesi başladı. Maçalikaşvililər ailəsinə qarşı daha bir ədalətsizlik 21 iyunda parlament qarşısındakı hadisələr zamanı onların ailə üzvü, Moris (Hüseyn) Maçalikaşvilinin saxlanılması idi və o, hələ də həbsdə qalmaqdadır.

Pankisidə yerlilərin miqrasiyasının artması tendensiyası nəzərə çarpır və bu, son illərdə dərədə yaranmış böhran və ümidsizliklə əlaqəlidir.

Pankisi dərəsində yaranmış böhran fonunda hakimiyyət müvafiq addımlar atmayıb. Bu addımlar mövcud sosial məyusluq və etimadsızlığa qalib gələrdi. Repressiya və nəzarətə istiqamətlənmiş siyasət əvəzində bərabərlik və davamlı inkişafa əsaslanmış siyasətin aparılması haqqında bir çox tövsiyyələrə baxmayaraq, hökumətin bu kimi siyasətin aparılması üçün siyasi icazəsi və resursu yox idi. Barışıq və Vətəndaş Bərabərliyi Məsələləri üzrə Dövlət Naziri Aparatı tərəfindən hazırlanmış Pankisi dərəsinin inkişaf planı layihəsi də daha çox müxtəlif müəssisələrin tərtibidir, nəinki real sosial dəyişikliklər və müsbət inkişafa istiqamətlənmiş baxışdır.

Son illərdə yerli fəallar icmanın müxtəlif imtiyazlı qruplarından istifadə etməklə idarə siyasətinin strukturu və daha demokratik və açıq şəkildə olması üçün dəyişiklik etməyə çalışırlar. Ancaq Pankisi dərəsi ilə bağlı hakimiyyətin yanaşmasını dəyişmədiyi və yenidən təhlükə, nəzarətlə bağlı qeyri-demokratik mexanizmi ilə hərəkət etdiyi halda, yerli fəallara sosial dəyişikliklərə nail olmaq çətinləşir və dəyişikliklərə nail olmaq inamı da zəifləyir.

**Mənbə: emc.org.ge**

*Gürcü dilindən tərcümə: Aynurə Əliyeva*

HAQQIN SÖZÜ – SÖZÜN HAQQI 15 DEKABR 2019-CU İL/ №023 (103)

# Yeni YOL

yeni_yol@mail.ru | İCTİMAİ QƏZET | იენი იოლი საზოგადოებრივი გაზეთი | qəzet 17 iyun 2015-ci il tarixindən nəşr olunur

## GÜRCÜSTAN AZƏRBAYCANLILARININ İNTEQRASİYA MƏRKƏZİ İLİA ÇAVÇAVADZEYƏ HƏSR OLUNMUŞ TƏDBİR KEÇİRİB




Tbilisidə Mirzə Fətəli Axundov adına Azərbaycan Mədəniyyəti Muzeyində Gürcüstanın görkəmli yazıçı, şair, publisist və ictimai xadimi İlia Çavçavadzeyə həsr olunan dəyirmi masa keçirilib.

Gürcüstan Azərbaycanlılarının İnteqrasiya Mərkəzinin (GAİM) təşkil etdiyi "İlia Çavçavadze və Gürcüstan" adlı tədbirdə azərbaycanlı və gürcü ziyalı, gənclər və məktəblilər iştirak ediblər.

Tədbiri giriş sözü ilə açan M.F.Axundov adına Azərbaycan Mədəniyyəti Muzeyinin direktoru Leyla Əliyeva bildirib ki, rəhbərlik etdiyi mədəniyyət ocağı Gürcüstanın tanınmış ədəbiyyat və ictimai xadimlərinə həsr olunan tədbirlərə ev sahibliyi etməkdən məmnundur. Onun sözlərinə görə, bu cür tədbirlər Azərbaycan və Gürcüstan mədəniyyətləri arasında dialoqu təşviq etməklə yanaşı, iki xalq arasında mədəni əlaqələrin daha da möhkəmləndirilməsinə töhfə verir.

GAİM-in icraçı direktoru Aygül İsayeva çıxışında azərbaycanlı yeniyetmə və gənclərin Gürcüstan ədəbiyyatını öyrənmələrinin əhəmiyyətindən danışıb. O, təəssüflə bildirib ki, Gürcüstanın Azərbaycandilli məktəblərində gürcü ədəbiyyatı tədris olunmur. A.İsayeva GAİM-də azərbaycanlı məktəblilərə Gürcüstan ədəbiyyatının tədris olunduğunu deyib. İcraçı direktor görkəmli ictimai xadim İ.Çavçavadzenin azərbaycanlılara hörmət və sayğı ilə yanaşdığını qeyd edib.

Professor Kaxaber Cakeli bildirib ki, Gürcüstanda İ.Çavçavadze "millətin atası" adlandırılır: "İlia Çavçavadze yalnız Gürcüstanın deyil, bütün Qafqazın gələcəyini düşünürdü. O, hərtərəfli dahi şəxsiyyət olub. İ.Çavçavadzenin azərbaycanlılara ehtiram bəslədiyi hamıya məlumdur".

Daha sonra çıxış edən Tbilisi Dövlət Universitetinin professoru Çarita Caşi azərbaycanlı gənclərin İ.Çavçavadzenin həyat və yaradıcılığına göstərdiyi böyük maraqdan fərəh duyduğunu bildirib. Onun sözlərinə görə, Gürcüstanın müasir azərbaycanlı gəncləri ağıllı və bacarıqlıdırlar: "Bugünkü gənclər Gürcüstan və Azərbaycan arasında gələcək münasibətləri inkişaf etdirərək daha da möhkənləndirəcəklər".

Digər natiqlər də çıxışlarında İ.Çavçavadzenin yaradıcılığından bəhs edərək onun cəmiyyətlərdə demokratikləşmə və tərəqqi ilə bağlı ideyalarının bu gün də aktual olduğunu vurğulayıblar.

Tədbir çərçivəsində GAİM-in şagirdləri İ.Çavçavadzenin şeirlərini və müxtəlif əsərlərindən parçalar oxuyublar.

Mənbə: report.az

## BRİTANİYA ŞİRKƏTİ GÜRCÜSTANDA NEFT EMALI ZAVODU TİKMƏK İSTƏYİR



Böyük Britaniyanın "Evolve Trading and Investment" şirkəti dünyada müxtəlif layihələr həyata keçirən "SAVM-SABA Group LP" kampaniyası ilə birgə əməkdaşlıq çərçivəsində Gürcüstanda neft emalı zavodu (NEZ) tikmək niyyətindədir.

Zavod yerli və xarici neft şirkətlərinə xidmət edəcək beynəlxalq hab olacaq. Zavodda az kükürdlü mazutun istehsalı planlaşdırılır.

Bildirilir ki, 2020-ci il yanvarın 1-dən etibarən bütün okean və dəniz sularında, həmçinin qapalı su hövzələrində üzən bütün iritutumlu gəmi, motorlu qayıq və katerlərin yalnız az kükürdlü mazut yanacağı ilə işləyəcək. Həmin tarixdən dəniz nəqliyyatında digər yanacaq növlərindən istifadə qadağan ediləcək.

Bununla əlaqədar yayılan məlumatda deyilir ki, Qara dəniz regionunda Gürcüstanda belə bir zavodun inşası rəsmi Tbilisinin iqlim dəyişikliyi ilə bağlı Paris sazişinə sadiqliyini dünyaya sübut edəcək.

Zavod fəaliyyətə başladıqdan sonra sutkada orta hesabla 30 min ton barrel neft emal edəcək. Tələbat artdıqca zavodun istehsal gücü də artırıla bilər.

Mənbə: AZƏRTAC

## ƏN ÇOX BİRBAŞA XARİCİ İNVESTİSİYALAR HƏYATA KEÇİRİLƏN SAHƏLƏR



Göstəricilərə əsasən, 2019-cu ilin 3-cü rübündə ən çox birbaşa xarici investisiya maliyyə sektorunda həyata keçirilib və 96 milyon ABŞ dollarına çatıb. Bu isə ümumi birbaşa xarici investisiyaların 23 faizidir.

Milli Statistika Xidmətinin məlumatına görə, ikinci yerdə 49,3 milyon ABŞ dolları ilə emal sənayesi, daha sonra isə 45,7 milyon ABŞ dolları ilə mehmanxanalar və restoranlar sahəsi gəlir.

Həyata keçirilən investisiyaların həcminə əsasən top-5 sahələr arasında 4-cü və 5-ci yeri 43,4 milyon və 39,7 milyon dollar həcmi ilə tikinti və energetika tutur.

Göstəricilərə əsasən, Gürcüstanda həyata keçirilən birbaşa xarici investisiyaların həcmi 2019-cu ilin 3-cü rübündə 417,3 milyon ABŞ dolları təşkil edib. Bu isə 2018-ci ilin 3-cü rübünə olan göstricilərdən 13,7 faiz çoxdur.

Mənbə: bpn.ge

## QUMAR BİZNESİNDƏN DÖVLƏT BÜDCƏSİNƏ 97,492 MİLYON LARİ GƏLİR DAXİL OLUB



Dövlət büdcəsi gəlirləri ilə bağlı hesabata əsasən, dövlət büdcəsinə bu ilin 10 ayında qumar biznesindən 97,492 milyon lari gəlir daxil olub.

İllik müqayisədə qumar oyunlarından büdcəyə daxilolmaların həcmi 8% azalıb.

Yanvar-oktyabr aylarında büdcəyə həvəsləndirici oyunlardan 5 448 292 lari, elektron oyunlardan 9 305 438 lari, oyun avtomatlarından 52 461 133 lari, klub oyunlarından 913 209 lari, kazino oyunlarından isə 29 042 851 lari gəlir daxil olub.

Qeyd edək ki, 2018-ci ildə Gürcüstanda oyun biznesinin dövriyyəsi illik müqayisədə 128% artaraq 13,806 milyard lari təşkil edib.

## GÜRCÜSTANDA ƏN ÇOX HANSI ÖLKƏ VƏTƏNDAŞLARI İŞLƏYİRLƏR?



Gürcüstanda əmək miqrantlarının sayı getdikcə artır. Gəlirlər Xidməti tərəfindən verilən məlumata əsasən, 2018-ci ildə ölkədə 11 697 xarici ölkə vətəndaşı işlə təmin olunub. Bu isə, ondan əvvəlki illə müqayisədə 300 nəfər artıq işlə təmin olunmuş şəxs deməkdir. Rəsmi məlumata görə, 2017-ci ildə Gürcüstanda 11 402 nəfər xarici vətəndaş işlə təmin olunub.

2019-cu ilin yanvar-iyulunda isə Gürcüstanda işləyən xaricilərin sayı 10 573 nəfər təşkil edib. Ümumi hesabda Gürcüstanda 124 ölkə vətəndaşı çalışır.

Gürcüstanda işləyən xarici vətəndaşların sayı:

- Türkiyə - 2 539
- Azərbaycan - 1 210
- Ukrayna - 1 181
- Rusiya - 964
- İran - 832
- Çin - 818
- Ermənistan - 469
- Hindistan - 362
- Qazaxıstan - 205
- Belorusiya- 176

Mənbə: bpn.ge

Təsisçi:
"Gürcüstan Gənclərinə Yardım və Maarifləndirmə Təşkilatı"

Redaktor:
Azər MUSAOĞLU
Yayım Direktoru:
Hacı BƏKİROĞLU
Qrafik dizayn:
Elsevər ƏHMƏDOV

ÜNVAN: Qardabani şəh., Kolxoz küç. 4
TEL: (+995) 555 96 18 68
599 54 12 92
EMAİL: yeni_yol@mail.ru

Redaksiyaya gələn əlyazmalar geri qaytarılmır və onlara rəy verilmir. Müəlliflə redaksiyanın mövqeyi müxtəlif ola bilər. Qəzet hələlik ictimai əsaslarla yayımlanır və pulsuz paylanır. Qəzetdə müxtəlif informasiya agentliklərinin xəbərlərindən də istifadə olunur.